# AZƏRBAYCAN RESPUBLİKASI

## Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısının

## SƏRƏNCAMI

№ 057 "10" 01 2025-ci il

**"Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın seçki komissiyasının yaradılması haqqında"**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin icrası ilə əlaqədar hazırlanmış "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndlərini rəhbər tutaraq

**QƏRARA ALIRAM:**

1. Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılsın.

2. Seçki komissiyasının tərkibi Daşkəsən Rayon İcra Hakimiyyətinin əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 5 üzv olmaqla aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri**

| | |
|---|---|
| Namiq Süleymanov | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |

**Komissiyanın üzvləri**

| | |
|---|---|
| Sahib Əhmədov | Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| Ruslan Məmmədəliyev | Daşkəsən Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| Elmar Əliyev | Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı |
| Cavanşir Qocayev | Daşkəsən rayon Ağsaqqallar Şurasının sədri |
| Mətanət Abdullayeva | Daşkəsən rayon Mədəniyyət işçiləri müstəqil həmkarlar təşkilatının sədri |

| | |
|---|---|
| Səmayə Şabanova | Daşkəsən rayon Təhsil işçiləri azad həmkarlar təşkilatının sədri |
| Vasif Hüseynov | "Qızıl Aypara" Cəmiyyətinin Daşkəsən rayon bölməsinin sədri |
| Bəkir Qurbanov | Qarabağ Müharibəsi Əlilləri, Veteranları, Şəhid Ailələri İctimai Birliyinin Daşkəsən rayon filialının müdiri |

3. Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın tərkibi 5 nəfər müəyyən edilsin.

4. Seçki komissiyasına tapşırılsın ki, Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində (www.dashkesen-ih.gov.az) və digər müvafiq yerlərdə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin.

5. Seçki komissiyasına tapşırılsın ki, Daşkəsən Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatını Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.9-cu maddəsinə uyğun olaraq 30 iş günü müddətinə başa çatdırsın və seçkilərin qanunvericiliyin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etsin.

6. Daşkəsən Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sahib Əhmədova tapşırılsın ki, sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

BAŞÇI: ORXAN ABBASOV

DÜZDÜR,

SƏNƏDLƏRLƏ VƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İLƏ İŞ ŞÖBƏSİNİN MÜDİRİ: SAHİB ƏHMƏDOV

Azərbaycan Respublikası Daşkəsən rayon İcra Hakimiyyəti başçısı
SƏNƏDLƏR ÜÇÜN